# Sərhəddən kənar akkreditasiya ilə bağlı siyasət

Bu siyasət "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və ILAC-G21 "Sərhəddən kənar akkreditasiya - əməkdaşlıq prinsipləri" sənədi əsasında hazırlanmışdır.

Bu siyasət "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin (bundan sonra – AzAK) sərhəddən kənar akkreditasiya fəaliyyətinə şamil edilir.

AzAK aşağıdakı hallarda xarici ölkənin uyğunluğu qiymətləndirən qurumlarının akkreditasiya üzrə müraciətlərini qəbul edir:

- xarici ölkədə akkreditasiya orqanı mövcud olmadıqda;
- xarici ölkənin akkreditasiya orqanı tələb olunan fəaliyyət sahəsi üzrə akkreditasiya həyata keçirmədikdə;
- xarici ölkənin akkreditasiya orqanı ILAC MRA sazişinə qoşulmadıqda;
- xarici ölkənin uyğunluğu qiymətləndirən qurumunun müştərisi AzAK-dan akkreditasiya tələb etdikdə və öz ölkəsinin akkreditasiya orqanını ekvivalent kimi qəbul etmədikdə;
- xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu eyni hüquqi şəxsin tərkibinə daxil olan digər uyğunluğu qiymətləndirən qurum və ya qurumlar kimi AzAK tərəfindən akkreditasiya olunmaq istədikdə.

Əgər xarici ölkədə ILAC MRA sazişinə qoşulmuş akkreditasiya orqanı mövcuddursa, lakin xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu AzAK-a akkreditasiya ilə bağlı müraciət etməkdə israr edirsə, AzAK xarici ölkənin uyğunluğu qiymətləndirən qurumunu aşağıdakılar barədə rəsmi məktubla məlumatlandırır:

- həmin xarici ölkədə akkreditasiya orqanının mövcud olması;
- şərtlər və şərait baxımından həmin xarici ölkənin akkreditasiya orqanına müraciət etməyin məqsədəmüvafiq olması;
- ILAC MRA sazişinə qoşulmuş bütün akkreditasiya orqanlarının bərabərliyi;
- akkreditasiya ilə bağlı müraciət qəbul olunduğu halda da, həmin xarici ölkənin akkreditasiya orqanının akkreditasiya prosesinə cəlb olunmasının mümkünlüyü.

Yuxarıda sadalananlarla tanış olduqdan sonra da xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu AzAK-a akkreditasiya ilə bağlı müraciət etməkdə israr edərsə, AzAK müraciəti qəbul edə bilər.

Müraciət qəbul olunduğu halda AzAK aşağıdakı şərtlərə əməl edir:

- xarici ölkənin akkreditasiya orqanı ilə əlaqə qurmazdan əvvəl AzAK-a müraciət edən xarici ölkənin uyğunluğu qiymətləndirən qurumunun razılığını alır;
- qiymətləndirmə komissiyasına üzv (qiymətləndirici/texniki ekspert) cəlb edərkən xarici ölkənin mədəniyyəti, yerli qanun və qaydaları, danışıq dili və bu kimi faktorları, həmçinin texniki səriştəliliyə dair tələbləri nəzərə alır. Bununla yanaşı AzAK xarici ölkənin akkreditasiya orqanı ilə məsləhətləşir və xarici ölkənin müvafiq şəraiti nəzərə alınmaqla hazırlanmış bütün akkreditasiya tələblərinə əməl edir;
- xarici ölkənin akkreditasiya orqanı ilə əməkdaşlıq edir, müvafiq olduqda xarici ölkənin akkreditasiya orqanının qiymətləndirici/texniki ekspertlərini qiymətləndirmə komissiyasına cəlb edir;
- xarici ölkənin akkreditasiya orqanının qiymətləndirici/texniki ekspertlərini qiymətləndirmə komissiyasına cəlb etmək mümkün olmadıqda, AzAK-a müraciət edən xarici ölkənin uyğunluğu qiymətləndirən qurumunun razılığı ilə xarici ölkənin akkreditasiya orqanını müşahidəçi qismində qiymətləndirmə prosesinə dəvət edir;
- xarici ölkənin akkreditasiya orqanı ILAC MRA sazişinə qoşulmayıbsa, və ya tələb olunan fəaliyyət sahəsi üzrə akkreditasiya həyata keçirmirsə, AzAK xarici ölkənin akkreditasiya orqanının müvafiq sahədə təcrübə toplaması, həmçinin ILAC MRA sazişinə qoşulması üçün imkan yaratmaq məqsədilə xarici ölkənin akkreditasiya orqanı ilə əməkdaşlıq etməyə çalışır.

Xarici ölkənin akkreditasiya orqanı tələb olunan fəaliyyət sahəsi üzrə ILAC MRA sazişinə qoşulduqda və ya AzAK-a müraciət edən xarici ölkənin uyğunluğu qiymətləndirən qurumunun istəyi ilə akkreditasiya üzrə fəaliyyət xarici ölkənin akkreditasiya orqanına ötürülə bilər.

“Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinə əsasən xarici ölkələrin uyğunluğu qiymətləndirən qurumları Azərbaycan Respublikasının ərazisində uyğunluğun qiymətləndirilməsi fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, bu qanuna uyğun olaraq akkreditasiya olunurlar.

Akkreditasiyanın nəticələrinin qarşılıqlı tanınması haqqında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu Azərbaycan Respublikasının ərazisində uyğunluğun qiymətləndirilməsi fəaliyyətini Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə müəyyən edilmiş qaydada AzAK ilə razılaşdırır. Xarici ölkənin uyğunluğu qiymətləndirən qurumu bu qanuna uyğun olaraq akkreditasiya edildiyi halda fəaliyyəti AzAK ilə razılaşdırılmış hesab edilir.

Azərbaycan Respublikasında təsis edilmiş uyğunluğu qiymətləndirən qurum beynəlxalq səviyyədə tanındığı halda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər hal nəzərdə tutulmayıbsa, bu qanuna uyğun olaraq Azərbaycan Respublikasında akkreditasiya olunmalıdır.

Bu siyasət AzAK tərəfindən sərhəddən kənarda həyata keçirilən təkrar akkreditasiya və illik qiymətləndirmələrə də şamil olunur.

Bu siyasətin bütün maraqlı tərəflər üçün aydın və əlçatan olması AzAK tərəfindən təmin edilir.